# Neftçala, Yardımlı və Naftalanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbirlər keçirilib

**Neftçala Rayon İcra Hakimiyyətində "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda görüş keçirilib.**

RİH-in əməkdaşlarının, yerli inzibati ərazi dairələri üzrə nümayəndələr və bələdiyyə sədrlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri görüşdə bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi kimi tarixi rolu böyükdür. Ulu Öndərin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə Milli Məclis tərəfindən qəbul edilən yeni Konstitusiya Azərbaycanın hüquqi dövlət quruculuğu prosesində mühüm mərhələni təşkil edir. Bu sənəd müstəqil Azərbaycan Respublikasının hüquqi əsaslarını qoyub və ölkənin demokratik inkişafına yönələn zəmin yaradıb. Konstitusiya həmçinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini təsbit edən əsas hüquqi ana sənəddir. Bu sənəd eyni zamanda hakimiyyətin qolları arasında qarşılıqlı əlaqələri müəyyən edərək ölkənin demokratik inkişafını təmin edib.

Görüş mövzu ətrafında müzakirələrlə yekunlaşıb.

* * *

**Yardımlıda da "Konstitusiya və Suverenlik İli" ilə bağlı tədbir keçirilib. Rayon rəhbərliyinin, hüquq-mühafizə orqanları əməkdaşlarının, idarə, müəssisə və təşkilat nümayəndələrinin iştirakı ilə keçirilən tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.**

Tədbirdə çıxış edən RİH başçısının müavini Əfsanə Məmmədova vurğuladı ki, Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edir: "Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynayır. Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlamış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir".

Tədbirdə çıxış edən digər natiqlər bildirdilər ki, Azərbaycan özünü bölgənin ən güclü və qalib dövləti kimi təsdiqləyib. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm əhəmiyyət kəsb edən bir hadisədir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

* * *

**Naftalanda isə şəhər icra hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenliyin təməli: Gələcək nəsillər üçün irs" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

Tədbirdə şəhər icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, YAP Naftalan şəhər təşkilatının, Şəhər Ağsaqqallar Şurasının üzvləri, idarə, müəssisə, təşkilat rəhbərləri, eləcə də gənclər iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində Ümummilli Liderin şərəfli ömür yolunu əks etdirən eksponatlara baxış keçirmiş, suverenliyi və tarixi zəfəri özündə əks etdirən fotoşəkillərdən ibarət sərgi ilə tanış olmuşlar.

Çıxış edənlər Ulu Öndərin dövlətçilik, müstəqillik və hüquq sahələrindəki irsini, onun Azərbaycanın gələcək nəsilləri üçün yaratdığı əhəmiyyətli töhfələri vurğulayaraq bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının ölkəmizin suverenliyinə və demokratik prinsiplərə əsaslandığından söhbət açmış, bu prinsiplərin qorunması istiqamətində dövlət başçısı İlham Əliyevin müstəsna xidmətlərindən danışmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 1 mart (№46).- S.10.